# Yazılarının əsgəri

Vətənpərvərlik ən dərin, ən müqəddəs, ən ülvi hisslərdən, duyğulardan biridir.

Hər bir azərbaycanlı vətəninə sevgisini, xidmətini öz çalışdığı sahə ilə təbliğ edir. Yəni, "vətəninə xidmət edən hər bir insanın qiyməti onun vətənə, millətə xidməti ilə, əsl insanlıq ləyaqəti isə vətənpərvərlik hissi ilə ölçülür. Vətənə məhəbbət insanın daxilindən, qanından, genindən gəlir. Vətən sevgisi insana ana südü ilə verilir. Əsgər dedikdə, sadəcə əsgər və zabitlərimiz nəzərdə tutulmur.

"Ötəri hisslərin arxasınca getmədi qələmim. Vətən, torpaq, insan sevgisini əks etdirərək gələcək nəsillərə tarixi bir sənəd kimi saxlamağa cəhd etdim, həm də gördüyüm kimi".

***Bibixanım İsayeva.***

**Kimdir o?**

İsayeva Bibixanım Ağarza qızı-Qəbələ rayonunun Vəndam qəsəbəsində anadan olmuşdur.

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Yazıçı-publisist hazırda "Qəbələ" qəzetinin məsul katibidir.

Bibixanım İsayeva öz peşəsi ilə vətənə sevgisini göstərən və qələmi ilə xidmət edən bir Azərbaycan əsgəridir.

Onu ilk tanıdığım gündən necə vətənpərvər, öz peşəsinə bağlı biri olduğunu gördüm.

Torpaq, xalq və vətən uğrunda ölümü belə gözəltına alanlar vətən məhfumunu həqiqi mənada realcasına vətənləşdirənləri,




igidləri qələmə almağı, tanıtmağı, əməllərini örnək kimi insanlara vəsf etməyi özünə borc bilərək bu sevdiyi yolda uğurla addımlar atır.

Demək olar ki, Qəbələmizin elə bir şəhidi, qazisi, veteranı yoxdur ki, Bibixanım İsayeva onları bizə tanıtmasın, qələmə almasın. O, iki kitabın müəllifidir.

**"Ağ rəngin sehri"**

2022-ci ildə Bibixanım İsayeva Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimov haqqında "İnsanlığın zirvəsi" kitabını böyük çətinliklə də olsa, çap etdirdi.

2023-cü ilin noyabrında isə artıq Bibixanım İsayevanın vətənpərlik mövzusunda, Qəbələ rayonunun şəhid həkimi, baş leytenant Aqşin Faiq oğlu Ənvərliyə həsr olunmuş "Ağ rəngin sehri" adlı ikinci kitabı işıq üzü gördü.

Bibixanım İsayeva böyük məsuliyyət tələb edən bu işini də uğurla başa vurdu.

Şəhidimizə həsr olunan bu kitabın hər sətrində yazıçının öz dərin düşüncələri yer alıb. Kitabın təqdimatı isə Qəbələ rayon Mədəniyyət Mərkəzində noyabr ayının 18-də yüksək səviyyədə keçirildi. Bu təqdimat demək olar ki, bütün rayona səs saldı. Çünki eşidən, bilən hər kəs orada idi. Yerlər dolu olsa belə insanlar ayaqüstə bu tədbiri izlədi. Həm də sonadək...

Qəbələ Rayon Mədəniyyət Mərkəzində keçirilən təqdimat mərasimində rayon icra hakimiyyətinin, idarə və təşkilatların nümayəndələri, Vətən Müharibəsi iştirakçıları, qazilər, şəhid valideynləri və Aqşin Ənvərlinin ailə üzvlərinin iştirak etdiyi tədbirdə öncə şəhidin əl işlərindən ibarət sərgi ilə tanış olunmuş, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş və torpaqlarımızın azadlığı uğrunda şəhadətə yüksəlmiş şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir.

Azərbaycanlı olan hər kəs, bu vətənin hər bir övladı, Azərbaycanımızın gələcəyi üçün əlindən gələni etməlidir. Heç bir əziyyət yerdə qalmır. Bibixanım müəllimənin də zəhmətinin bəhrəsi onun oxucularının ona və onun yazılarına olan rəğbət və marağıdır.

Ümid edirəm ki, qələmə aldığı hər sətir gələcək nəsillər üçün bir örnək, tarixi sənəd olacaq.

**İlahə RƏHİMOVA.**

# Qızılca

Qızılca - kəskin virus mənşəli infeksion xəstəlik olub temperaturun artması, intoksikasiya, yuxarı tənəffüs yollarının və gözün selikli qişasının zədələnməsi və ləkəli papulyoz səpgilərlə səciyyələnir. Bu xəstəliyə yalnız insanlarda rast gəlinir.

Qızılca istənilən yaşda müşahidə edilir. Lakin 1 yaşdan 4 - 5 yaşa qədər olan uşaqlar arasında daha çox rast gəlinir, 6 aya qədər uşaqlar qızılca ilə nadir hallarda xəstələnirlər. 3 aya qədər uşaqlar isə bir qayda olaraq xəstələnmirlər ki, bu da anadan ötürülən passiv immunitetin sayəsindədir.

Xəstə insandan yoluxma səpkilərin əmələ gəlməsindən 4 - 5 gün əvvəl və səpkinin yaranmasından 5 gün sonra baş verə bilər.

İnfeksiyanın ötürülməsi havadamcı yolu ilə baş verir. Öskürmə, asqırma zamanı qızılca virusu yuxarı tənəffüs yollarının selik hissəcikləri vasitəsilə ətraf mühitə ifraz olunur və hava axını ilə böyük məsafələrə yayıla bilir.

Qızılcanın klinik mənzərəsində 3 dövr ayırd olunur: kataral və ya başlanğıc dövr, səpki dövrü və piqmentasiya dövrü.

Xəstəliyin başlanğıc dövründə bədən temperaturunun 38,5 - 39 - 40 dərəcəyə qədər artması, yuxarı tənəffüs yollarının və konyuktivanın zədələnməsinə rast gəlinir. Zökəm, boğazda ağrı, quru öskürək, bəzən xəstəliyin başlanğıcında inağ sindromu inkişaf edir. İşıqdan qorxma, göz qapaqlarının şişkinliyi olur.

Qızılca xəstəliyinin təhlükəli olmasının əsas səbəbi onun verdiyi ağırlaşmalardır. Bu ağırlaşmalar xəstəliyin istənilən dövründə əmələ gəlir. Onlar əsasən ikincili infeksiyanın qoşulması ilə bağlıdır. Fəsadlaşma tənəffüs yollarının iltihabı ilə (bronxit, pnevmaniya), orta qulağın iltihabı (otit), baş beyin və onurğa beyin qişasının iltihabı ilə (meningit, ensefalit, meningoensefalit) təzahür edir.

Qızılcanın profilaktikası kompleks tədbirlərin aparılmasından ibarətdir. Uşaq müəssisələrində qızılcanın yayılmasının qarşısının alınmasında mühüm tədbir erkən diaqnostika və xəstənin vaxtında təcrid olunmasıdır.

Xəstə ilə təmasda olan peyvənd olunmamış insanlara peyvənd olunması tövsiyə olunur. Peyvənd vurulması mümkün olmayan uşaqlara isə immunoqlobulin vurulmalıdır.

Xəstə müəyyən edilən infeksiya otağında peyvənd olunmayan uşaqlar təcrid olunmalıdırlar, 21 gün ərzində isə müşahidə olunurlar.

Qızılca xəstəliyi ilə mübarizədə ən effektiv vasitə peyvənddir. Azərbaycan Səhiyyə Nazirliyi və TƏBİB tərəfindən gətirilən qızılca, parotit və məxmərək xəstəlikləri ilə mübarizədə 3 komponentli vaksin istifadə olunur.

Körpələrimizin sağlamlığının qorunması üçün əziz valideynlər, sizi hamılıqla övladlarınıza peyvənd vurdurmağa dəvət edirəm.

**Saleh ASLANOV,**
**Qəbələ rayonunun baş pediatrı.**

# Futzal üzrə xatirə turnirinin finalı

20 dekabr 2023-cü il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətinin və Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Olimpiya İdman Kompleksində rayonun idarə, müəssisə və təşkilatları arasında "Heydər Əliyev İli" çərçivəsində keçirilən futzal üzrə xatirə turnirinin finalı və qaliblərin mükafatlandırılma mərasimi keçirilmişdir.



16 komandanın qatıldığı turnirin final mərhələsində maraqlı və gərgin idman mübarizəsi şəraitində keçən oyunlarda FHN-nin Qəbələ Rayon Dövlət Yanğından Mühafizə Hissəsi komandası 1-ci yeri, Rayon Polis Şöbəsinin komandası 2-ci yeri, Qəbələ Beynəlxalq Hava Limanı komandası 3-cü yeri tutmuşlar. Qalib komandalara, hakimlər heyətinə və turnirdə fərqlənən oyunçulara kubok və diplomlar təqdim edilmişdir.

# Rayonumuzda əmək yarmarkası

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində Dövlət Məşğulluq Agentliyinin Şəki-Zaqatala Regional Məşğulluq filialının Qəbələ Xidmət şöbəsinin dəstəyi ilə əmək yarmarkası keçirilmişdir. Qəbələ rayonundan olan sakinlərin iştirak etdiyi yarmarkada 9 müəssisə tərəfindən 100 vakansiya əmək yarmarkasına çıxarılmışdır.






# QƏBƏLƏ

## qəzetinə

**2024-cü ilin birinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 20 manatdır.**

***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226** (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.**


# İTMİŞDİR

Qəbələ rayon Bum qəsəbə sakini **Yaqubov Taleh Teyyub oğlun**a məxsus 99 ON 250 qeydiyyat nişanlı OPEL ASTRA markalı maşının **texniki pasportu** itdiyi üçün etibarsız sayılır

---

Qəbələ rayon Mıxlıqovaq kənd sakini **Kərimov Ağakərim Telman oğluna** məxsus FORD markalı maşının **99 FY 515 nömrəli dövlət qeydiyyat nişanı** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Vəndam qəsəbə sakini **Ağayev Asəf Ağabəy oğluna** məxsus 406013003588-10301 reyestr nömrəli **çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

FHN Şimal-Qərb Regional Mərkəzinin zabiti **Abbasov Bəhərçi Rəşid oğluna** məxsus 1019646 A seriyalı **iş vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ rayon Bum qəsəbə sakini Emin Baratoğlu ailəsi ilə birlikdə Bum qəsəbə uşaq bağçasının müdiri **Rahilə Sədirovaya** anası

**Məsturə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Mərkəzi Xəstəxanası PH-ın kollektivi iş yoldaşları **Xancanov Rəsul Eyvaz oğluna** babası

**Atakişi Bilalovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.


Redaktor
Azad Məmmədov.

*TƏSİSÇİ:*
Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1.300*